## *TORPAĞI ƏKƏNƏ VERİN*

Sumqayıtda qoca bir kişi yaşayır: torpağı sevən, əkib-becərən, hamıya yaxşılıq edən nurani bir qoca.

Təqaüdçü olduğundan, qocaldığından işləyə bilmirdi. Amma əli işdən soyumamışdı. Hey işləmək, əkib-becərmək həvəsi ilə yaşayırdı.

Şəhər rəhbərliyindən torpaq sahəsi istəsə də, onu razı salan yox idi.

Bu nurani kişi düşünüb-daşınıb qərara aldı ki, boş bir sahədə ağac, gül əkib-becərsin.

Belə də etdi. Yaxşı meynələr, şitillər, güllər alıb boş bir sahədə əkdi. Gözəl bir bağ saldı. Yaz fəsli bu ağaclara sığal çəkdi. Çiçəklər yazın nəfəsi ilə günəşə boylandılar.

Adamlar baxıb deyirdilər:

— Sağ olsun bu kişini, yüz adamın işini görüb. Necə də gözəl bağ salıb!

Amma... Amma günlərin bir günü şəhər rəhbərliyindən gəlib dedilər ki, bu bağı sökmək, dağıtmaq lazımdır.

— Qanunsuz bağ salmısan. Ağacları da kəs at getsin!

Bu qoca bağban bağda oturub dərin fikrə dalmışdı. Balaları kimi sevə-sevə böyütdüyü ağacları, gülləri kəsib tökməyə nə əli gəlirdi, nə də ürəyi. Oturub hey fikirləşirdi. Sanki ağaclar da bunu duyub kədərlənirdilər. Güllər saralıb-solmaqdaydı...

Bu zaman qocanın yanında bir maşın dayandı. Maşından ucaboylu, gülərüzlü sanki hamıya və bu qocaya da tanış olan bir kişi düşüb bağa doğru gəldi: kişiyə əl uzadıb salam verdi.

— Salam, qoca! Niyə kefsiz oturmusan burada... Nurani qoca ağacları göstərdi:

— Balalarımla vidalaşmaq mənə çətindi.

— Nə olub, de?

— Bu ağacları kəsdirirlər. Qanunsuz əkibsən, deyirlər. Təqaüdçü babayam, əlim işsiz əsir. Bura boş yer idi. Təmizləyib bağ saldım, gül-çiçək əkdim... Nə xeyri, indi gəlib deyirlər ki, dağıt bu bağı.

— Kim deyir dağıt?

— Kim deyəcək? Şəhərin böyükləri... Elə bu zaman beş-altı maşın gəlib onların yanında dayandı. Maşından enən adamlar onların yanına gəldilər.

— Bunlar deyir, bağı dağıt, ağacları kəs, gülləri qopar?! Yox, elə iş görmə.

Sonra şəhər rəhbərlərinə tapşırdı:

— Bu torpağı, bu sahəni verirəm bu qocaya. Qanuniləşdirin. Torpağı onu əkib-becərənə verin! — dedi rəhbər.

— Oldu, yoldaş Əliyev! Baş üstə! Oldu! Bizim nurani qoca bağban eşitdiklərinə o qədər sevindi ki, sanki ürəyində gün doğdu, cavanlaşdı. Yaxınlaşıb rəhbərin əllərindən öpmək istədi. Lakin rəhbər onu qucaqlayıb sinəsinə sıxdı.

— Lazım deyil, — dedi. Bir də gələndə görüm ki, daha yaxşı güllər əkmisən... Vətəni çiçəkləndirmək lazımdır...

Rəhbər getdi. Lakin onun məhəbbəti bağbanın ürəyində qaldı, ağacların da, güllərin də!

***Məmməd Namaz***

***Günəş ömürlü insan. – B: Təhsil, 2012. – S.13-15.***